# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



May 2024 il 2 say 17

## BU SAYIMIZDA

Nihâl Mirdoğan / Gerekir / 3
İnci Okumuş / Hasretin Yaktığı Yerde İstanbul / 4
Aygün Rəhimli Akbaba / Mən / 5
Halise Tekbaş / Hanı Çok Seviyordu / 6
Telli Pənahqızı/ Doğmalar, Yadlar / 7
Lütviyyə Əsgərzadə / Ülviyyə Həmzəyeva Sənətində Rənglərin Mozaikası / 8
Eluca Atali / Yad Dildə Azadlıq Nəğməsi / 13
Tərana Turan Rəhimli / Sən Mənim Şəklimi Çəkəbilməzsən / 14
Bənövşə Mahmudqızı / Yenə Kimdir Darıxan / 15
Banu Musayeva / Bölməyin / 16
Adilə Nəzər / Həyat Gözəldir / 17
Nüşabə Məmmdəli / Müşgənbər Ətirli Ölüm / 18
Fatma Özger Bilgiç / Son Nefesteyim / 20
Esmira Günəş / Səbəbi Sənsin / 21
Vüsalə Vətənxan Mehri / Getdin / 22
Zərəngiz Dəmirçi Qayalı/ Mizan - Terazi / 23
Meryem Küçük / Mavisi Yasaklanmış Çocuk / 24

**T Ü R K A Y**

**aylıq ədəbiyyat dərgisi**

**Baş redaktor** Lütviyyə Əsgərzadə

**Məsul katib** Meryem Küçük

**E mail** dergiturkay@gmail.com

**May 2024 il 2 say 17**

## Nihâl Mirdoğan

# Gerekir

Mâtem mi benim hakkım ,söyle Râb
İllâ huzura akmam gerekir
Ya da, kahpenin ,çakal yüzüne
Söyle kaç kurşun sıkmam gerekir

Aydınlık gerek ,şanlı vatana
Yolda pusuya yatan yatana
Türk toprağına ölüm katana
Kanlı mâtemi dökmem gerekir

Kaç ağırlığım kurşuna eştir?
Ya da tonlarca kurşun birleştir
Bedenimi bin ton irileştir
Kini, namluya takmam gerekir

Hem yüzüne hem de bedenine
Toprak isteyen yurt nedenine
Gavur dölüne,bir de ceddine
Korkunç pusuyla çökmem gerekir

Mahlûklar ağır gelir ârıma
Yarabbim n'olur dokun ağrıma
Dualarımla gel de çağrıma
İtleri burdan çekmem gerekir

Namertler bugün kan döküyorken
Çaresizlikten yaş akıyorken
Kalleş kurşunu dert sıkıyorken
O mevzileri yakmam gerekir

Bu vatan taş taş harâb mı olsun
Koca bir mâzi serâb mı olsun
Bunca can,ölüp turâb mı olsun
İllet dibini sökmem gerekir

İnletmeliyim mavi gökleri
Ver bombaları,ver tüfekleri
Dört yöne açsın Türk âfâkları
Tuna ufkundan çakmam gerekir

Ya da demirdağ kuvveti alıp
Aksakallılar öğüdü dolup
Er meydanında, maskara yolup
Hain dilleri bükmem gerekir

Her damla kanın vardır hesabı
Bu Gülnihâl'in attı asabı
Ver elime Râb,okla, mızrabı
Sadaktan, arza çıkmam gerekir
Zûlm kalesini yıkmam gerekir
Toprağımda Türk kokmam gerekir

## İnci Okumuş

# Hasretin Yaktığı Yerde İstanbul

**Nedim İstanbul**
Sevdana düştüğüm yerde
Her kulaç
Sana götürüyor beni
Nasuhî gözyaşlarıyla âşıklar
Dinliyor Süleymaniye'den
Huzurun ulvîleşen sesini
Hissettir bana yalnızlığımda
Vefalı bir dost gibi
Hissettir ey İstanbul
Omzuma konmuş ellerini

**Ferman İstanbul**
Ağır ağır sürükle yorgunluğumu
Dalsın seninle gözlerim
Üsküdar'da hülyalı uykuya
Al kır direncini Beykoz'da
Ruhumdaki karanlığın
Müebbet ver
Kanlıca'da
Bekleyen sevdalıya

**Kavi İstanbul**
Akşam uykusuna dalan Hisar'ın
Sıçrar yangını damarlarıma
Bin âh ile yaşamayı öğrenirken senden
Yedi tepeden ilahî sesin gelir kulaklarıma
Firakına düştüğüm yerde bil ki
Koşuşan sendin
Kirpik uçlarıma

**Derman İstanbul**
şte karşımdasın
Üsküdar tepeleri akşamı uğurlar
Sürgün düşlerimi Çamlıca' da rehin alıp
Beykoz'da
Sana mecbur kılıyor uykular
Benzi sararıyorken
Koynunda seherin
Neden hâlâ sende diniyor ağrılar?

**Beşîr İstanbul**
Hangi evren
Tebessümün kadar esrarlı?
Hangi çile
Şükürlü çilen kadar?
Kalamış'ta huzura yenilirken
Tiryaki hüzünler
Kahrı gömen şarkıları söyle yeniden
'İstanbul'u sevmezse gönül
Aşkı ne anlar?'

**Şefik İstanbul**
Kapılıp kendi girdabına
Kendini yakan
Sana söyleyemediğim şiirler kalmış
Bir de erguvan tadında
Öpüşlerin dudaklarımda
Darağacına çekilirken
Dönülmez sevdalar
Sen kalmışsın canana kefil
Aşka şahit
Sere serpe Boğaz'ın ayaklarında

**Canan İstanbul**
Akşam sefasında yahut
Sabah endamında
Sana sızlanır
Sana açarım kalbimi
İsmine adadığım risalemde
Güzelliğindir bil ki
Hüznümün kefeni
Vaktin mizana konduğu yerde sen
Zümrüt bakışlarınla dalarsın
Boğazlardaki suya
Bense sitem dolu şiirler yazarım
Sensiz demlenen uykuya

## Aygün Rəhimli Akbaba

# Mən

Yamanca dolmuşam qara bulud tek,
Her derde ağlayan gözde yaşam men.
Susduğuma baxma, içim göyneyir,
Düşünme nadanam, qelbi daşam men.

Her addımı quyu, her yanı yalan
Torpağı yağıda, yuvası talan.
Sağını solunu deyişik salan,
Yönünü itiren tenha başam men.

Artıq gözlerimin önü torlanır.
Ürek eşq esiri olub korlanır.
Eleyim-xelbirim göyde fırlanır,
Gederi qonağam eliboşam men.

Rehimli illerin qeherin udub.
Şirin bal adıyla min zeher dadıb.
Feleyin kimese qezebi tutub..
Qurunun oduna yanan yaşam men

Halise Tekbaş

## Hani Çok Seviyordun

Hani çok seviyordun neden değiştin
Yüreğimde ateşler yakıpta gittin
Kıymetimi bilmedin sen nasıl eştin
Dünyamı başıma yıkıp da gittin

Unut beni bir daha anma vefasız
Sen benim uğrumda yanma vefasız
Maziye dönerim sanma vefasız
Bağrıma hançeri çakıp'ta gittin

## Aşkımıza Nazar Değdi

Bir zamanlar çok sevmiştik
Aşkımıza yemin içtik
Bade içip nahoş olduk
İkimize nazar değdi

Çiçekler gibi hep açtık
Mutluluğa yelken saçtık
Gökyüzüne neşe kattık
İkimize nazar değdi

Nazar değdi göze geldik
Maziyi tarihe gömdük
Mutluluğa imza attık
İkimize nazar değdi

## Telli Pənahqızı

# Doğmalar, Yadlar

Sən mənim içimdə doğma qəribsən,
Sağımda, solumda qərib doğmalar.
Ruhumun sirdaşı o yad, qərib sən,
Yanımda ömrümə şərik doğmalar.
Gözümdə bir nursan zülməti yaran,
İşıqda zülməti görüb gəlmişəm.
Məcnunu səhrada dörd dolandıran
Hansı hikmət imiş, indi bilmişəm.
Doğmalar yad kimi gəzir içimdə,
Birdən o işıqda taparlar səni.
Dəlisov küləklər əsir içimdə,
Qorxuram deyəsən: tap, apar məni.
Mən necə anladım yad doğmalara,
Axı necə deyim o qərib sənsən!?
Ruhumu görməyən bu adamlara
Necə söyləyim ki, qərib deyilsən!?
Zülmətdən usanıb doğma qəriblər,
Axtarış deyəsən qalıb sabaha.
Mənə bir gecəlik möhlət veriblər,
İçim ələk-vələk, çölüm xaraba.
İçimdə sən adda qərib hönkürür,
Qınağa tələsir doğma da, yad da.
Göydən ruhlar baxıb lələk tökdürür,
Bayquşlar ulayır o xarabada.
Axtarıb bir küncdə tapdım səni mən,
Əlinə toxundum, əllərin bumbuz.
Vallah, öz içimdə mən də qəribəm,
Təsəlli nə gərək, indi söz ucuz.
Əl açıb Tanrının dərgahına biz,
Dedik: - Mələk elə, ay Allah, bizi!
Bu kirli dünyada yoxdur yerimiz,
Al, apar yanına hər ikimizi!
Uçurduq üz-üzə, nəfəs-nəfəsə,
Bir səs hey deyirdi:- Baxmayın yerə!

## Lütviyyə Əsgərzadə

# Ülviyyə Həmzəyeva Sənətində Rənglərin Mozaikası

Rəng və fantaziya calarlarının bədii təfəkkürünün təkrarsızlığından qaynaqlananan fərdilik yeni cərəyanların yaranmasına səbəb olur. Pablo Pikasso kubizm, Pol Sezann postimpressionizm cərəyanını yaratdığı kimi. Və ya Mikelancelo Merizi da Karavaconun əsərlərində öz ifadəsini tapan Borokko üslubu. Qoyyanın əsərlərində izlədiyimiz Pikasso üslubu. Özünəməxsusluğu ilə seçilən Rembrandt, Rubens və s. Hər bir rəssamın öz hiss və düşüncələrini ifadə etməsi özünəməxsusdur, fərdidir. sənətkar üslubunda öz daxili dünyasını əks etdirir. Hər bir rəssam üslubu ilə tanınır. Əslində, bu kimi nümunələrin sayını istənilən qədər artırmaq olar. Əsrlər öncə Mövlana Cəlaləddin Rumi bunu yığcam şəkildə ifadə etmişdir: “Təstinin içində nə varsa, çölünə o sızacaq.” Ziya paşa isə ifadəni bir az da poetikləşdirmişdir: “Üslubi bəyan, eyniylə insan.”

Beləliklə, özünü anlatdığı, özünü ifadə etdiyi üslub, həm də sənətkarın yoludur, tərzidir, özüdür. İnsanın şəxsiyyəti, xarakteri, üslubu, dəyərləri düşüncələrində, düşüncələri isə üslubunda əks olunur. Sənət əsərləri əks olunduğu üslubun gücü ilə ölməzliyə çatır. Üslub kompozisiyalarda insanın öz düşüncələrinə, hisslərinə, xəyallarına, həyəcanına verdiyi formadır. Bir az da konkretləşdirsək, üslub hər hansı bir rəssamın sənətinə vurduğu möhürdür: Bu mənim üslubumdur! Bu mənim yolumdur! Bu mənim tərzimdir! Daha hökmlə desək, “Bu mənəm!” Üslubdan geniş bəhs etməyimiz əsassız deyil. Yazımızda Azərbaycam rəssamlıq sənətinə adını böyük hərflərlə yazan, özünəməxsus üslubu ilə hadisə yaradan, Azərbaycan Respublikasının Əməkdar Rəssamı (2009), Azərbaycan Rəssamlar İttifaqının üzvü, “Yeni Era” Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü (2013), Naxçıvan Rəssamlar Birliyinin sədri (2011), Millət vəkili Ülviyyə xanım Həmzəyevanın ecazkar sənətindən söhbət açmağa çalışacayıq.

Azərbaycan rəssamlıq sənətinə öz dəst-xətti ilə qədəm qoyan Ülviyyə Həmizəyeva əsərlərində yaratdığı heyrətamiz məqamlarla özünü təqdim edir: “Bu mənəm!” Bu fikir dəfələrlə Ülviyyə xanıma sual olaraq ünvanlanıb və cavablandırılıb. Müsahibələrindən birində jurnalistin Ülviyyə xanıma ünvanladığı, “Sizin bir rəssam kimi dəst – xəttiniz kəskin seçilir. Bu yol sizi necə tapdı? Rəssamlıq istedadının sizə kimdənsə bəxş olunduğunu düşündüyünüz birisi varmı, - sualına Ülviyyə xanımın verdiyi cavab fikrimizin ifadəsinə yardımçı olacaq: “Mənim dəsti xəttim məni özü tapıb desəm, yanılmaram. Qeyd edim ki, rəssamlıq sənəti mənə irsi olaraq keçib. Həm Ata tərəfindən, həm Ana tərəfindən sənətlə ciddi məşğul olublar. Nənələrim gözəl xalçalar toxuyar, naxışlarını özləri vurar, ipliklərin rənglərini özləri seçərdi. Atam gözəl rəssam və dəmir üzərində döymə ilə məşğuldur. Deyərdim ki, bu sənət irsi olaraq mənim qanıma kodlaşdırılıbdır.” Ülviyyə xanımımın “bu sənət irsi olaraq mənim qanıma kodlaşdırılıbdır”, - sözləri sənətinin sehrinin haradan gəldiyinə işlq salır. Bu irsi kodlaşmada Ata, Ana, nənə amili, yəni genetika mühim rol oynayır.

Nənələrimizin toxuduğu, naxışlar vurduğu xalçalar hər biri ayrı-ayrılıqda bir rəsm əsəridir. Xalça toxunana qədər incə, bir o qədər də ciddi işlər görülür. İplər seçilir, təbii boyalarla boyanır, ornamentlər müəyyənləşdirilir. Naxışların vurulması, rənglərin seçilməsi, bu proseslərin hər biri bir sənət işidir. Ülviyyə xanımın yaradıcılığında rəssam və döymə ilə məşqul olan Ata amili daha güclüdür, - deyə düşünürəm. Xalça toxuma kimi, döymə sənəti çox qədim və ciddi sənətdir. İlk nümunələri Misir piramidalarında tapılan döymənin tədricən ağac, daş və dəmir üzərində növləri yaranıb. Hər bir sənətdə olduğu kimi, metal üzərində döymə sənəti sənətkardan iti göz, böyük ustalıq tələb edir. Sənətkar əvvəlcə əsərin cizgilərini müəyyənləşdirir, sonra rəsmi metal lövhə üzərinə köçürür. Özünün də etirafı etdiyi kimi, Ülviyyə xanım uşaqlığından sənətlə vəhdətdə böyüyüb. Dünyagörüşü sənətlə vəhdətdə formalaşıb.

Mən hər zaman şairləri rəssamlarla, rəssamları şairlərlə qarşılaşdırıram. Çünki rəssamların fırça ilə çəkdiklərini, şairlər sözlərlə ifadə edir və ya əksinə. Cahid Sitki Tarancıya görə, şeir “sözlərlə gözəl şəkillər yaratmaq sənətidir.” Rəssamlıq da rənglərlə gözəl əsərlər yaratmaq sənətidir. Ədəbiyyatda sözlərin seçimi böyük əhəmiyyət kəsb etdiyi kimi, rəssamlıqda bu missiyanı rənglər öz üzərinə götürür. Rəssam ruhunun hökmü,

qəlbinin və boyaların gücü ilə əsrarəngiz əsərlər yaradır. Rəssamın uğurunun sirrinin yarısı rəng seçimindədir desək, - yanlış olmaz. Bir məşhur rəssamdan soruşurlar: - Uğurunuzun sirri nədədir? Rəssam təvazökarlıqla cavab verir: "Ah, bu rənglər..."

Həyat rənglərlə, rənglər sirlərlə doludur... Həyat yunanca kalos (gözəl), eidos (forma) və scopos (izləmək) sözlərinin birləşməsindən yaranan kaleydoskop kimidir (içinə baxıldığında rəngli naxışlar görülən bir əşya). Kaleydeskopda naxışlar, işığın əks olunmasıyla əldə edilir və durbin hərəkət etdirildikcə dəyişir. Əslində, təbiət özü canlı bir kaleydeskopdur. Yetər ki kaleydeskopu hərəkət etdirdikcə izlənilən gözəllikləri həyatda da izləməyi, görməyi, fərqinə varmağı biləsən. Özündə sirlər gizləyən rənglərin sirrinə vaqif olasan.

Sirlərlə dolu olan rənglər fiziki, mənəvi və psixoloji olaraq insanlara öz təsirini göstərir. "İsti rənglər insanları canlandırır, soyuq rənglər isə sakitləşdirir. Canlı və parlaq rənglər insanı nə qədər xoşbəxt və enerjili edirsə, soyuq və tutqun rənglər bir o qədər sakitlik gətirir. Əsəb pozğunluğu olanlara sarı, yuxusuzluqdan əziyyət çəkənlərə bənövşəyi, şadlanmaq istəyənlərə narıncı, enerjili olmaq istəyənlərə isə firuzəyi rəngi seçmək tövsiyə olunur. "Ağ rəng məsumluğun və saflığın rəmzi sayılır. Mavi insanı sakitləşdirir (Ziqmund Freyd). Göz muncuqlarının mavi rəngdə olması təsadüfi olmadığı kimi, Van Qoqun ulduzlu səmanı rəsm edərkən emosional vəziyyətini ifadə etmək üçün mavi və sarı rəng çalarlarından istifadə etməsi də təsadüf deyil. Yəni hər rəngin öz fəlsəfəsi, hər rəngin öz məna tutumu və çaları var. Hətta həyatımızda baş verən hadisələrin hər hansı bir rənglə əlaqədar adı var. Ölümün rənginin qara, paklıq, təmizliyin rənginin ağ, xoşbəxtliyin rənginin qırmızı olması kimi... Rəssam, rəsm və xoşbəxtlik." Bu kəlmələr yan-yana gələndə Nazim Hikmətin arvadı Veraya yazdığı "Saman sarısı" şeirində yaxın dostuna, rəssam Abidin Dinoya xitabla yazdığı: "Sən xoşbəxtliyin rəsmini çəkə bilərsənmi, Abidin?", - sözləri yada düşür:

İşin asanına qaçmadan
amma gül yanaqlı körpəsini əmizdirən
mələk üzlü ananın rəsmini deyil
nə ağ örtükdə almaların,
nə akvariumda su qabarcıqlarının
arasında dolaşan
qırmızı balığı.
Sən xoşbəxtliyin rəsmini
çəkə bilərsənmi, Abidin?

Sözsüz ki, Abidin Dino xoşbəxtliyin rəsmini çəkmədi. Çünki arzuları hələ çin olmamışdı. Amma Abidin onları xoşbəxt edəcək arzuların şəklini sözlə çəkmişdi. Sözlə ifadə etdiyi xoşbəxtlik bir gün onlara nəsib olarsa, bu rəsmi çəkmək üçün kətan və boyanın yetmədiyinin altını cızmışdı. Beləliklə, Abidin Dino, Nazim Hikmətin sualına rəsmlə deyil, şeirlə cavab vermiş, xoşbəxtliyi sözlərlə anlatmışdı:

"Və dolaşsaydıq Türkiyəni
Bu başdan o başa.
Yatdığımız yerlər muzey olmuş,
Sürgün şəhərlər cənnət.
Bax o zaman Nazim,
Çəkərdim xoşbəxtliyin rəsmini.
Buna da nə kətan yetərdi,
nə boya…"

Ədəbiyyatımızda rənglərin, mahiyyəti, özəlliyi, fəlsəfəsi ilə bağlı ən dolğun poetik nümunələri xalq şair Rəsul Rza "rənglər" silsiləsindən olan şeirlərində mükəmməl bir şəkildə ifadə etmişdir. Dünya ədəbiyyatında isə rəng anlayışına ən yaddaqalan poetik don biçən fransız şairi Artur Rembo olmuşdur. Mən rəngləri öz-özlüyümdə belə səciyyələndirirəm, danışan rənglər, düşündürən rənglər, hayqıran, qışqıran, fəryad edən rənglər, kölgəli qəmli, yaslı rənglər və xoşbəxtliyi ifadə edən qırmızı rəng. Ülviyyə xanımın rəng seçimini bir sözlə ifadə etməli olsaq, "möhtəşəmdir!"

Rənglərin sirrinə vaqif olan Ülviyyə xanımın sənətində "rənglərin mozaikası xarakterikdir. O, bir rəsm əsərinin kompozisiyası daxilində, necə deyərlər, mövcud olan yeddi rəngin hamısından istifadə edir" və rənglərin üzərinə bir də fəlsəfi qat çəkir. Rəssamın bədii təfəkkürün və intellektual qavrayışın dərin siyasi-fəlsəfi vəhdətindən yoğrulmuş yaradıcılığında rənglərin özünəməxsüs fəlsəfəsi var. Bu fəlsəfi çalarlar insanı düşündürür. Ülviyyə xanımın əsərlərinə vizual olaraq baxıb keçmək olmur. Rəssam xanımın sənətindəki "rəng mozaikasını" Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti, akademik İ.Həbibbəyli belə səciyyələndirir: " Ülviyyə Həmzəyeva ciddi mifoloji mövzularda işlədiyinə görə onun rəsmlərində də rənglərin tünd çalarları, rəng effekti baxımından tündvarilik nəzərə çarpır. Lakin istənilən əsərində digər rənglərlə müqayisədə az

yer tutan ağ, mavi və açıq qırmızı rənglər tündvari rənglərin içərisindəki işığı, aydınlığı, nikbinliyi ifadə edir. Bu mənada Ülviyyə Həmzəyevanın tünd rənglərlə çəkilmiş ciddi görkəmə malik cizgilərində kompozisiyada nisbətən az yer tutan ağ, mavi və açıq qırmızı rənglər rəssamın ifadə etmək istədiyi mətləbin tamaşaçıya çatdırılmasına uğurla xidmət edir."

Əslində, "tündvari" rənglər, xüsusilə qara rəng sadə, sadə olduğu qədər də mürəkkəb bir rəngdir. Qara rəng, günəş şüalarını içinə çəksə də, çölə hər hansı bir rəng buraxmır. Belə bir fikir formalaşıb ki, "Qara, şüuraltı olaraq, başqalarında maraqlı və qəribə təəssürat oyatmaq istəyənlərin rəngidir. Belə insanlar öz həssaslığını boğmağa çalışır. Cəsur, təşəbbüsə meylli, sağlam xarakterli olurlar." Hər bir sənət, xüsusilə rəssamlıq sənəti özünəməxsusluğu, cəsurluğu və təşəbbüskarlığı sevir. Ülviyyə xanımın yaradıcılığında hər üçünün izlərini görürük. Cəsurluq, təşəbbüskarlıq və özünəməxsusluq. Bunu rəssamın rəng və mövzu seçiminə də aid etmək olar.

Daha çox kompozisiyalı rəsmlər yaradan rəssamın sənətində kompozisiyaya uyğun çoxsaylı detallardan istifadə olunması diqqətçəkicidir. Ülviyyə xanımın sənətində mübhəmlik var. Bu mübhəmliyi açmaq üçün detallar "kontur xətləri" rolu oynayır. Onun "yağlı və sulu boya ilə çəkdiyi rəsm əsərləri orijinal qrafika nümunələri kimi görünür. Kompozisiyalı rəsm əsərləri yaratmaq rəssamdan əsərlərində süjet qurmağı tələb edir. Ülviyyə xanımın əsərləri demək olar ki, süjetlidir. Sujetləri isə zəngin və əhatəlidir. O, bir rəsm əsəri çərçivəsində yerləşdiyi müxtəlif çoxsaylı detallar (ağac, göz, səməni, alma, əjdaha, ilan və s.) və ona uyğun olaraq aldığı rəng effektləri vasitəsilə süjeti inkişaf etdirir. Rəssamın əsərlərində təsadüfi detal yoxdur. Daha çox mifoloji mövzular və motivlər üzərində işləməyi sevən Ülviyyə xanımın rəsmlərində əsatirdən gələn div, ilan, balıq, Simruq rəmzlərinə rast gəlinir. Sadaladığımız rəmzlərdən biri əsərinin mərkəzi obrazı əsatiri motivləri canlandırmağa, digər detallar isə obrazın mahiyyətinin açılmasına kodlaşdırılıb. Bütövlükdə, rəsmlərdəki detallar: fiqurlar və ya elementlər müəllifin fikrinin açılmasına xidmət edir.

"Azərbaycan təsviri sənətində rəngli qrafikanın əsas yaradıcısı olan Ülviyyə Həmzəyevanın rəsm əsərlərində janrlararası daxili bir bağlılıq vardır. Bir janrda, məsələn, qrafika janrında yaratdığı rəsm əsərində natürmart, peyzaj, qurama, bəzən hətta portret cizgilərini mütənasib şəkildə yerləşdirib, vahid kompozisiya yaratmaq Ülviyyə Həmzəyevanın universal yaradıcı istedadının göstəricisidir" (akademik İ.Həbibbəyli). "Azərbaycan təsviri sənətində süjetli rəssamlığın əsas yaradıcılarından biri" olan Ülviyyə Həmzəyevanın "mifoloji süjetlər və obrazlarla zəngin olan "Mistik Misir", "İtmiş cənnət", "Dəli Dəvə", "Paralel həyat" rəsm əsərlərini "Azərbaycan təsviri sənətində yağlı boya ilə işlənmiş nadir mifoloji miniatürlər" (İ.Həbibbəyli), "Məkan və zaman", "Bürclər" əsərləri milli ruhda yaradılmış fəlsəfi məzmunlu quramalarıdır" (Carolyn Edlund).

Rəssamın möcüzəvi yaradıcılığını Spiker Art Bizness İnstitutunun direktoru Carolyn Edlund belə səciyyələndirir: "Ülviyyə Həmzəyevanın rəsmlərinin janrını müəyyən etmək elədə asan deyil. O quaş və kətan üzərində yağlı boya ilə işləyir. İlk baxışdan onun əsərləri müasir alleqoriyalar kimi görünür, harda ki təsviri görmək kifayət etmir. O həm də başa düşülməlidir. Eyni zamanda, onun əsərləri Azərbaycan sənətinin qədim ənənələri ilə dərin əlaqəlidir. Xalçaların, miniatürlərin və qədim petrogliflərin nümunələrini xatırladan rəsm əsərləri, əfsanələr və nağılların fantastik personajlarını canlandırır. Onun tarixi dəqiqliyi əks etdirən dünyagörüşü, müəlliflik hüququ ilə qorunan müasir qrafika texnikalarında "toxunmuş" qədim simvolizmə diqqət yetirin. Onun "fəlsəfi əsərləri" çox maraq doğurmuş və ona geniş bir izləyici auditoriyası qazandırmışdır." Rəssamın əsərlərində diqqət yetiriləcək "heyrətamiz məqam"lar çoxdur."

Hüseyn Cavid - Fridrix Nitsşe paralelizmi üzərində maraqlı müşahidələr aparan professor A.Talıbzadə yazır ki, fəlsəfədə Fridrix Nitsşe haralara gedib çıxmışdısa, Hüseyn Cavid də öz bədii əsərlərində həmin düşüncə hücrələrinə varmış", belə bir duyğu yaranmışdır ki, "Cavid qəhrəmanlarının yaşı Adəm və Həvva əhvalatı qədərdir, Nitsşenin Zərdüştü qədərdir." Danılmaz faktdır ki, Cavidi oxuyan oxucunun yaşı Adəm və Həvva ilə, Zərdüştlə eyni yaşda olur. Caviddə köhnə ən yenidir. Bu sözləri eyniylə Ülviyyə xanımın sənətinə də şamil etmək olar. "Fəlsəfədə Fridrix Nitsşe, ədəbiyyatda Hüseyn Cavid haralara gedib çıxmışdısa, sənətdə Ülviyyə Həmzəyeva da "həmin düşüncə hücrələrinə varmışdır." Onun yaradıcılıq dünyası, təxəyyülü və rəssamlıq dünyagörüşü minilliklərdən süzülüb gələn, milli ənənələrimizin özəyini təşkil edən mifoloji və folklor təfəkkürünə,

ulu Qobustan, Gəmiqaya dünyasına, zəngin miniatür sənətinə tapınır. Onun yaradıcılığında keçmiş bu gündür, bu gün isə gələcək. Rəssamın mistik qəhrəmanlarının yaşı çox qədimdir. Bu qəhrəmanların çoxu əsatirlərdən, nağıllardan gəlmədir. “Onun rəngarəng rəsmləri qədim süjetlərin mifologiyası və müasir həyatın mozaikası təəssüratı oyadır.” Rəssamın tablolarında qədim Avesta süjetləri, zəngin rəmzi təsvir elementləri qarşılıqlı vəhdətdə təzahür edir. Tamaşaçı onun məna və məzmun dolu rəngkarlıq əsərlərinə, “Həyat həqiqəti”, “Yuxuya bənzər sevgi”, “Həyat ağacı”, “Şuşada öpüş”, “Bəşəriyyətin beşiyi”, “Paralel həyat”, “Narahat ruhlar”, “Sikkə”, “Ailə sirli qapı”, “Arzular qayığı” və s. tamaşa edəndə ulu əcdadlarımızın mənəvi irsinin izinə düşən rəssamla birlikdə sirli dünyaya, “rənglərlə və nağıl elementləri ilə yazılmış nağıllar” aləminə, milli mədəniyyətimizi əks etdirən buta, simurq, xonça, səməni, alma detalları ilə zəngin olan bir dünyayasəyahət edir. “Bu rəsm əsərlərindəki süjet (“Simurq” rəsmi), milli ornamentlər (“Xəzinə küpü” tablosu), “Muğam” əsərində təsvir olunan musiqi üçlüyü, arxa fondakı milli memarlıq abidələri və romantik Azərbaycan peyzajı Ülviyyə Həmzəyevanın rəngli nağılları”, “Muğam” rəsmi Azərbaycançılıq düşüncəsinin təsviri sənət dili ilə ifadə olunmuş ritmik qrafikasıdır.“ Rəssamın qrafika əsərlərindən “Avesta”, “Çirkin ördək”, “Bürclər”, “Mistik Misir”, “Fəsillər”, “Bəşəriyyət” və digərlərini nümunə göstərmək olar. Ülviyyə Həmzəyevanın “miniatürləri mifoloji motivlər, xalq sənəti örnəkləri və müasir həyat fəlsəfəsi üzərində köklənmiş fərqli sənət hadisəsidir.”

Rəssam xanımın yaradıcılıq qaleriyasında portretlərin özünəməxsus yeri var və yaratdığı bütün portretlər qiymətlidir, “Ulu Öndər Heydər Əliyev”, “Prezident İlham Əliyev”, “Vitse-prezident Mehriban xanım Əliyeva”, “Hüseyn Cavid”, “Mirzə Cəlil”, “M.Ə.Sabir”, “Bəhruz Kəngərli”, “S.Bəhlulzadə”, “Möminə xatun”, “Məmməd Araz”, “Akademik İsa Həbibbəyli” və s.

Portret yaratmaq sənətkardan böyük məsuliyyət tələb edir. Bu məsuliyyət Ülviyyə xanımın yaratdığı portretlərdə (portretlərini işlədiyi şəxsiyyətlərin daxili zənginliyini zahiri dünyasında təzahür etdirməsində) ciddi şəkildə hiss olunur. Bu rəssamın peşəkarlığının, sənət məsuliyyətinin və dərin bədii yaradıcılıq müşahidələrinə malik olmasının göstəricisidir. Ü.Həmzəyeva özünün də bir neçə avtoportretini yaradıb. “Rəssam yaratdığı portretlərin hər biri ayrı-ayrılıqda bədii təhlil və təsvir xüsusiyyətləri ilə səciyyələnir. Rəssam bir çox əsərlərində obraz olaraq balaca qızı İlknurun surətindən istifadə edib.” Sənətşünas Əsəd Quliyev bu istiqaməti məşhur əfsanəvi fırça ustası Toğrul Nərimanbəyovun yaradıcılığı ilə paralelləşdirir: “Bu yerdə Ü.Həmzəyevanın tablolarında yaratmış olduğu obrazlar bolluğunu da T.Nərimanbəyov yaradıcılığı ilə müqayisə etmək olar.”

Ülviyyə xanımın sənətinə stimul verən amillərdən biri də onun qoynunda milli-mənəvi xəzinəmizi yaşadan, Nuh məqbərəsi, Əshabi-Kəhf mağarası, Möminə Xatun türbəsi, Kültəpə mədəniyyəti, Gəmiqaya rəsmləri, Qarabağ abidələri, İbn Küseyr məqbərəsi və s. ecazkar iqlimə, təbiətə, əsrarəngiz dağlara malik Naxçıvanda doğulub boya-başa çatmasıdır. Bu baxımdan “Naxçıvan rəssamlarını çox şanslı insanlar sayan” Ülviyyə xanım sənət pillələrində uğurla irəliləməyinin belə izah edir: “Mən Azərbaycanın gözəl və qədim şəhərlərindən biri olan Naxçıvanda anadan olmuşam. Mənim atalarım bu qədim torpaqda yaşamış, mənim xoşbəxt uşaqlığım burada keçmişdir. Ənənələrlə, mifoloji deyimlərlə dolu olan bu qədim diyar mənim yaradıcılığıma stimul verib. Naxçıvanda yaşayan insanlar bizim yüksək və başıqarlı dağlarımız kimi, nəcib və qürurludurlar. Mən qürur duyuram ki, böyük memarlar, musiqiçilər, rəssamlar, müdrik sərkərdələr bu müqəddəs torpaqlarda yaşayıb yaradıblar. Naxçıvan dahilər beşiyidir. Bu gün mənim rəssam olmağımda gözəl təbiətimizin, təmiz ətirli havamızın, valideynlərimin və yaxşı insanların böyük əməyi vardır. Gün bitdiyində səhərin açılmasını səbirsizliklə gözləyirəm. Bir yuxu gördüyümdə tez bir parça kağız və ya kətan üzərində xatırlamağa tələsirəm. Mənim əsərlərim, düşüncələrim və istəklərimdə heç bir boşluq yoxdur. Məkan mənim “boşluğum” ilə doludur. Mənə aid olan incəliklər, simvollar, fraqmentlər, nümunələr, semiotika, mənim mistik dilim, göydən gələn səs – bunlardır mənim “boşluğum.” Simvolların, naxışların, rənglərin, musiqinin dili – bu mənəm, bu mənimdir, bu məndədir” -, deyir, Ülviyyə Həmzəyeva.

Bənzərsiz rəngləri, özünəməxsus üslubu, fəlsəfi mahiyyətli yaradıcılığı ilə zəngin ənənələrə malik olan, Azərbaycan təsviri sənətində öz sözünü demiş, imzasını təsdiq etmiş Ülviyyə Həmzəyeva istedadlı rəssam, Millət vəkili, peşəkar müəllim, qayğıkeş anadır. Azərbaycan Respublikası Milli

Məclisinin deputatı kimi, Ülviyyə Həmzəyeva ölkəmizdə mədəniyyətimizin inkişafına, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllimi və Naxçıvan Rəssamlar Birliyinin sədri kimi, yeni nəsil gənc rəssamların formalaşdırılmasına öz töhfələrini verir. Ülviyyə Həmzəyeva Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetinin Gənclik parkında soyqırım qurbanlarının xatirəsinə ucaldılan abidənin müəllifidir (2001). Onun əsərləri, Azərbaycan, ABŞ, Çin, Türkiyə, Portuqaliya, Gürcüstan, İspaniya və s. ölkələrdə keçirilən sərgilərdə nümayiş olunub. Əsərləri şəxsi kolleksiyalarda və muzeylərdə saxlanılır. Ülviyyə Həmzəyevanın yaradıcılığı haqqında ABŞ-ın Californiya şəhərində çap olunan "Beynəlxalq müasir ustadlar" kitabında məlumat verilmiş, əsərləri çap edilmişdir (2011). VIII "Vera" beynəlxalq festivalında "Unikal Milli Orijinallıq" nominasiyası üzrə mükafata layiq görülmüşdür.

"Müsabiqə tipli sərgi və ya festivallarda iştirak etməyi o qədər də istəməyən" Ülviyyə xanımın sənəti kimi, sənətə baxışı da fərqlidir:

"Hər bir rəssamın öz unikal dəst-xətti var, heç kəsə heç nə sübut etməli deyil və heç bir rəssam öz üslubunun digər rəssamın üslubundan üstün olduğunu sübut etməyə çalışmamalıdır. Nə qədər fərqli bir yanaşmadır. "Unikal Milli Orijinallıq" nominasiyası üzrə mükafata layiq görüldüyü VIII "Vera" beynəlxalq festivalından bəhs edən rəssam xanımdeyir: "Görkəmli rəssamlarla sərgilənmək və tanış olmaq hər zaman xoşdur. Azərbaycandan müasir rəssamlar Sakit Məmmədov, Fərid Ələkbərovdan başqa, dünya şöhrətli azərbaycanlı rəssam Tahir Salahov, Zurab Tsereteli, Slava Zaytsev kimi dünya şöhrətli qocaman ustadlarla sərgilənmək daha da xoş idi. Bu festivalda mənə ən yüksək "Unikal Milli Orijinallıq" nominasiyası üzrə mükafat verildi. Və Azərbaycanın adı bu tətbirdə birinci olaraq səsləndi. Onu da qeyd edim ki, rəsm üzrə belə nominasiya nəzərdə tutulmamışdı. Əsərlərimə baxış keçirən beynəlxalq münsiflər heyəti bu nominasiyanı xüsusi olaraq təyin etmişdi. Qeyd edim ki, beynəlxalq münsiflər heyətinə dünya şöhrətli rəssamlar, dizaynerlər və kolleksiyaçılar daxil idi. Bunlardan Tahir Salahov, Pierre Cardin kimi nəhəngləri göstərmək olar... Leonardo Da Vinçi, Tissian, Salvador Dali, Botiçelli, Mikelancelo, Buonorotti, Rembrandt, Rubensvə s. Bu sənətkarlar hər biri öz fərdi üslubu ilə yadda qalmışlar. Bu baxımdan Ülviyyə xanımın əsərləri əbədiyaşardır.

Ülviyyəxanımınmilliliyi,qədimliyi,mifologiyanı və real həyatın fəlsəfəsini özünəməxsus tərzdə əks etdirdiyi əsərlərinə saatlarla baxmaq, rəssamın simvollar, fraqmentlərlə, detallarla dolu olan könül dünyasına səyahət etməyi çox sevirəm. Rəssamın məkanına, sənət dünyasına səyahət labrintdə gəzmək kimidir. Ülviyyə xanımın "mistik dilini, ona aid olan incəlikləri, simvollari, fraqmentləri, semiotikanı anlamadan, naxışların, rənglərin sehrini duymadan, məkandakı möhtəşəmliyi görmədən rəsmlərinin mahiyyətini, fəlsəfəsini anlamaq mümkün deyil. Ülviyyə Həmzəyevanın əsərlərini vizual olaraq görməklə yanaşı, rəsm əsərinin alt qatını başa düşmək, anlamaq lazımdır. Anlamaq üçün isə, bir az sənətdən, bir az fəlsəfədən, bir az mifologiyadan, bir az əsatir, nağıl, miniatürdən, simvollardan, işarələr sistemindən baş çıxarmaq lazımdır. Yoxsa Ülviyyə xanımın "xalçaların, miniatürlərin və qədim petroqliflərin nümunələrini xatırladan rəsm əsərləri, əfsanələr və nağılların fantastik personajlarını canlandırdığı əsərlərə açar salmaq", onları oxumaq o qədər də asan deyil. Onun tarixi dəqiqliyi əks etdirən dünyagörüşü, müəlliflik hüququ ilə qorunan müasir qrafika texnikalarında "toxunmuş", qədim simvolizmə söykənən "fəlsəfi əsərləri" dəyərli, dəyərli olduğu qədər unikaldır (misilsiz, bənzərsiz, müstəsna).

Mövlananın belə bir deyimi var: "Hər kəsin baxmadığı istiqamətdən bax dünyaya..." Ülviyyə xanım bütün cərəyanlardan yararlananda da heç bir rəssamın baxmadığı aspektdən baxır dünyaya. "sirli-sehirli Ülviyyə dünyasından." Bu dünyada hər şey özünəməxsusdur, millidir, yenidir, fəlsəfidir, heyrətamizdir... Əsərlərində milliliyi, qədimliyi, mifologiyanı və real həyatın fəlsəfəsini özünəməxsus tərzdə əks etdirən, sənətdə öz-dəsti xətti olan Ülviyyə xanım Həmzəyevaya cansağlığı və sənət uğurları arzusu ilə, ayınız, gününüz mübarək olsun deyirik!

## Eluca Atali

# Yad Dildə Azadlıq Nəğməsi

Çeçen mücahidi
azadlıq nəğməsi oxuyur
rus dilində!
Düşünürəm, görəsən, neçə kilometr qalıb
mücahidin azadlığa çatmasına?
Çaşma dostum,
bu bir riyazi məsəl deyil...
At əlindəki kilometr sayğacını!
Boş əlinlə dur bu yolun
başlanğıc nöqtəsində
Bax irəli, lap irəli,
sil eynəyindəki dumanı, tozu.
Yaxşı bax gedən mucahidin addımlarına.
Təyin et onun sürətin
öz içindəki haqqın
Mütləq ölçüsüylə!..
Yalnız onda hesablaya bilərsən
mücahidin mənzilinə çatacaq
O müqəddəs nöqtəni!..
.....
Mücahid yerində addımlayırdı
durduğu dairə içində...

Təranə Turan Rəhimli

# Sən mənim şəklimi çəkə bilməzsən

Ağacı çəkərsən, daşı çəkərsən,
Yazda beli sınan qışı çəkərsən,
Dünyada nə var - pis, yaxşı, çəkərsən,
Sən mənim şəklimi çəkə bilməzsən.
Oxşada bilərsən qaş-gözümü də,
Rəngini taparsan hər sözümün də,
Çəkərsən içimdə kor dözümü də,
Sən mənim şəklimi çəkə bilməzsən.
Bu qərib ürəyi çəkərsən bəlkə,
İçimdən həsrəti sökərsən bəlkə,
Ruhumu rənglərə tökərsən bəlkə,
Sən mənim şəklimi çəkə bilməzsən.
Gözünün önündən surətim getməz,
Özümü görməyə qüdrətin yetməz,
Ömür payın bitər, o şəkil bitməz,
Sən mənim şəklimi çəkə bilməzsən

Bənövşə Mahmudqızı

# Yenə Kimdir Darıxan

Yenə kimdir darıxan,
Göz yaşlarını axıdan,
Ya da qürurundan içini dağıdan?!
Yenə kim görür yuxuda məni,
Yenə kim deyir,
Deyə bilmədiklərini?
Öz - özünə cəsarətlə,
Öz - özünə hərarətlə...
Sakitlik...
İçimdə nəsə sızıldadı,
Sanki qımıldandı...
Yenə kimdir darıxan?!
Eşqini götürüb sevdiyi qadına
Təslim olmağı ar bilən
Sən ey kəs!
Darıxmağını kəs!
Mən ruhsuz, mən hissiz,
Deyiləm sevgisiz!
Qalıram nəfəssiz
Sən hər darıxanda,
Soluram həmişə
Axmaqlıq qarşısında!
Yenə kimdir darıxan,
Yenə kim görür yuxuda məni,
Yenə kim deyir,
Deyə bilmədiklərini...?!

## Banu Musayeva

# Bölməyin

Zalım dünya bölünmüşük, ta bölməyin,
Qazax deyib,özbək deyib türk bölməyin,
Bu rus bizi elə böldü bölüm- bölüm ,
Min illərdi bölünmüşük, birləşmirik .
Ta bölməyin!!!
Biri şiə dedi bizə doğradılar dilim- dilim
Biri sünnü dedi bizə itirdilər ili - ilim.
Azəri dedi bizə bilinməsin soyum dilim,
Yalvarıram, bölünmüşük, birləşmırik,
Ta bölməyin!!!
Biz ki türkük soyumuz türk!
Unutmayın... Yunis İmrə,
Dədəm Qorqud türk! Danmayın!..
"Ergənəkon"yaranışım,Babək qalam,
Min illərdi bölünmüşük birləşmirik...
Ta bölməyin...
Biz türkük! Dilimiz türk,soyumuz türk!
Geydirmə ağ ayından sən bizə kürk
Əsəbdən başımıza qoyma börk,
Din adıyla bölünmüşük ta bölməyin,
Ta bölməyin...

## Adilə Nəzər

# Həyat Gözəldir

Boş ver,
kim nə deyir desin,
Həyat gözəldir, arxadaş.
Olanlara rəğmən,
olmayanlara rəğmən,
həyat gözəldir.
Nə yaxşı ki mən varam,
nə yaxşı ki sən varsan,
ağladıram, ağladırsan
nədənsiz...
bu həyat var ola bilməz
nə sənsiz, nə mənsiz...
Onsuz da ədalət topaldı,
həqiqət kor...
ver gücünü dilinə,
keçir sözü yeddi qatdan...
as özünü həyatdan...
Acığın bircə tüpürcəklikdi-
gecikmə atmağa.
“Sev, gül, yaşa”...
tələsmə yatmağa.
Arada qoy sazı bir kənara,
hay-harayla ariya oxu...
Bir az sevgi toxu ömrünə,
bir az da Eşq
Tanrıya...

Boş ver,
kim nə deyir desin..
Həyat gözəldir, arxadaş.
Ağac kölgəsinə çəkil arada,
gül üstə titrəyən kəpənəyə bax.
Sinəndə təntisin bir qaranquş əl,
ruhun sevdalansın yem daşımağa...
Bütün yorğunluğu at üzərindən,
beləcə... başını qat yaşamağa...
Yatma,
dan yerini o sevdiyinin
qaraca, yuxulu gözlərində aç...
sonra da uzun, bölüksüz
bir şirin, bir dərin, gözəl yuxu yat...
Sən qazan sevgini,
mən mənimsəyim...
Sən saat altı ol,
mən gülümsəyim...
Boş ver, kim nə deyir desin..
Həyat gözəldir, arxadaş.

## Nüşabə Məmmədli

# Müşgənbər Ətirli Ölüm

Bu səhər başqa bir səhər idi. Bu səhər erkən açılmışdı.Hətta, deyərdim ki,bu səhərin gecəsi olmamışdı. Hamı harasa tələsirdi.Hər kəs qapısından çıxar- çıxmaz,tanıdı,tanımadı bir-birinə bu sualı verirdi:- Gedirik? Həqiqətən rəsmi səfərbərlik elan olundu?. - Hə ey,hə,ay qardaş,qulağımla eşitdim!... - Ay səni xeyir xəbər olasan!- deyib,hər kəs öz ərazisinə yaxın olan Hərbi Komissarlığa tələsirdi ki, vaxt itirmədən, birincilərin cərgəsində olsunlar. 27 sentyabr 2020-ci il milyonların səbirsizliklə gözlədiyi İkinci Qarabağ müharibəsinin başlanmasına Ali Baş Komandan əmr vermişdi. Bu xəbər xalq üçün müharibə xəbəri kimi səslənmədi. Bu xəbər toy-bayram,qisas,azadllq, cəngi kimi səs- səda saldı. Cavanlı, qocalı, ahıllı, az yaşlı, qadınlı, kişili hamının bir amalı var idi, Qarabağa azadlıq!. Elə ilk gündən maşın karvanları, əsgərlərimiz, könüllülərdən ibarət dəstələr Qarabağa yollandılar. Bu səfər başqa səfərlərə bənzəmirdi- bu səfər ölüm qoxusu saçan səfər idi.Ancaq bu ölüm qoxusu müşgənbər ətirli idi. Hər kəs bu ətri, bu qoxunu dadmaq üçün tələsirdi, qabağa düşmək üçün yarışa girirdi. Axına düşənlər gülə- gülə, sevinə- sevinə uğurlarını" əsgər marşı" oxuyaraq qeyd edirdi. Sevinirdilər ki, Vətən oğlu olduqlarını təsdiqləyəcək, qələbəyə gedən yolda iz qoyacaqlar. Gecə yarısı döyüşçülər Qarabağa- Suqovuşan bölgəsinə çatdılar. Vaxt itirmədən döyüşçülər komandirlərinin əmrini yerinə yetirərək qruplara bölündülər. Təcrübəli hərbçi dəstələrdən hansı hücum mövqeyində, hansı müdafiə xəttində, hansılar düşmənə çaşdırıcı həmlələrlə atəş açacaqlarının təlimatını verdi. Hər kəs diqqətlə düşmən səngərini izləyirdi. Sakitçilik idi. Səs- səmir yox idi. Qəflətən , heç kəsin gözləmədiyi halda bir fişəng atıldı. Hər tərəf nura boyandı gözqamaşdırıcı işıq əsgərlərin tutduğu mövqeyi günəş işığı kimi işıqlandırdı. Komandirin amiranə səsi eşidildi: - Yerlərinizi cəld sürünərək dəyişin! Hücuma hazır olun! Əmri dərhal yerinə yetirib, döyüş vəziyyəti aldıq. İlk atəş ermənilər tərəfdən gəldi.Onlar işıqlandıraraq təyin etdikləri, əvvəl tutduğumuz mövqelərimizə atəş açırdılar. Biz isə atəş gələn tərəfə həmlələr edirdik. Birdən haradansa 4 tank çıxdı və sürətlə üstümüzə şığıdı. İlk döyüşümüz olmasına baxmayaraq artıq hər kəs öz işini bilirdi. Dəstəmizdə yeddi,səkkiz nəfər döyüşdə olmayan gənclər var idi Onlardan başqa, hamımız Aprel döyüşlərində, Tovuz döyüşlərində olanlar idi. Hətta, komandirimiz Birinci Qarabağ müharibəsi iştirakçısı idi.Çox təcrübəli idi.Erməni xislətini beş barmağı kimi bilirdi -Əsgər, tankları hədəfə al! Həmid dərhal alıcı quş kimi düşmən tankını alışdırdı. Bunu görən əsgərlərimizdə bir özgüvən,ruh yüksəkliyi yarandı.Qızğın döyüş başladı. Hər şey unuduldu. Həyat döyüş meydanından ibarət oldu. Hər kəs uzun illərin qisasını almaq üçün körpələrimizi ağaca mismarlayıb, qanının axmasına baxıb həzz alan, 6 aylıq körpənin dərisini soyduqca çığırıb ağlamağına qəhqəhə çəkib gülən, körpənin axan qanından, dodaqlarının kənarlarına yayıla- yayıla bir qaşıq içən balayanların it kimi dillərini çıxarıb necə o at dodaqlarının kənarlarını yalamasını yadlarına salan əsgərlərimiz coşmuşdu. Allahdan bir möcüzə istəyirdilər ki, qolları o qədər uzansın ki, erməni dığalarını girdikləri köztəpək deşiklərindən çıxarıb, ciyərlərini söksünlər,gözlərini dəlib ayaq altına atsınlar Onların yalvarışlarını, diz çökmələrini görməkdən çox şirin arzuları yox idi. Artıq bir saata yaxın idi ki, döyüş gedirdi. Atəş səsləri qulaq batırırdı. Peşəkar komandirimizin səlist,düzgün göstəriş, verdiyi əmrləri sayəsində hələ itkimiz yox idi. Amma, yaralılarımız var idi. Döyüşçülərimizdən yaralı olanlar isə,sanki,yaralandıqlarını hiss etmirdilər,əzmlə döyüşə davam edirdilər. Hava işıqlaşırdı. Döyüş mövqeyimiz o qədər də əlverişli deyildi. Səngərimiz də elə dərin səngər deyildi. Durduğumuz yer açıqlıq idi. Biz qərar tutduğumuz yerdən təxminən 50 metrlik məsafədə meşə var idi. Amma, ora çəkilməyi düşünmürdük Çünki, bu böyük risq idi. Orada erməni separatçıları pusquda dayana bilərdilər. Ermənilərin tutduğu döyüş mövqeyi yüksəklikdə idi. Onlar bizi ovuclarının içi kimi seçirdilər. Biz o yüksəkliyi hava tam işıqlaşmamış götürməlyiik:- deyə ,komandır öz- özünə danışırmış kimi yarı pıçıltılı səslə öz düşüncəsini əsgərlərlə paylaşdı. Birdən ilk dəfə tutduğumuz mövqeyə bomba atdılar. Toz dumana qarışdı. Bombanın gurultusundan heç nə eşidilmədi.Komandir atəş əmri verdi. Hər iki tərəf fasiləsiz atəş açırdı.

Od göydən yağırdı. Komandirimizin həyəcan keçirdiyi açıq görsənirdi.Birdən ermənilərin atəş istiqaməti dəyişdi. Əks istiqamətə atəş açmağa başladılar Səs-küy qopdu.Komandir özü qabağa sıçrayaraq hücum əmri verdi.Səngərdən çıxıb sürünərək təxminən 20- 25 metr bizdən qabaqdakı boş erməni səngərinə tərəf süründük. Səngərə çata-çatda ermənilər ikinci bombanı atdılar. Bomba qarşımızda partladı.Bu dəfə canımızı qurtara bilmədik. Dörd şəhid əsgərimiz 13 yaralımız var idi. Ermənilər qərar tutduğu yüksəklikdə isə hiss olunurdu ki, əlbəyaxa döyüşlər gedir. Komandirin ötkəm səsi eşidild -Yaralıları və şəhidlərimizi yerləşdirin səngərə? Yaralı əsgərlərimizin əksəriyyəti özü səngərə tərəf süründü. Yüksəklikdə əlbəyaxa dava dayanmışdı. Güllə səsləri gəldi. Yüksəklikdə döyüş gedirdi. Birdən keşik dəstə komandirinin cingiltili səslə “ Meşə istiqamətinə atəş” deyə bağırtısı eşidildi. Meşədə pusquda duran ermənilər yüksəklikdəki separatçılara yardıma getməyə cəhd göstərirdilər. Döyüşçülərimiz bir gözqırpımında onların tifaqlarını dağıdıb, göz açmağa imkan vermədilər. Yenicə üfüqdə günəş çıtlayırdı ki,onun qırmızı şəfəqlərilə birgə üç rəngli bayrağımız yüksəkliyin başında, dərədən aşağı flrladılan erməni bayrağını əvəz etdi. Dalğalanan bayrağımızı yüksəklikdə görən komandirimiz əllərini fərəhlə yanlara açaraq ,bir az kövrək və fərəh dolu səslə qışqırdı “Strategiyamız baş tutdu” Sonradan bildik ki, biz separatçıların başını qatırmışıq Xüsusi təyinatlı əməliyyat dəstəmiz arxa tərəfdən nəzərdə tutulan strategiyamızı həyata keçirməyə cəhd edirmişlər. Günəş şəfəqini yaymağa başlayanda, artıq komandirimiz mərkəzə məruzə edirdi:- Əməliyyat uğurla baş tutdu! 3 oktyabr. 2020 ci il tarixində Qarabağda gedən döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Suqovuşan işğaldan azad edildi. Üç rəngli bayrağımız Suqovuşan üzərində dalğalanır! Suqovuşan azaddır! Qarabağ Azərbaycandır!

## Dilan Keleş

## Bir İçim Su

Kaşı karam, gözü karam
Kabuk bağlamıyor yaram
Gel seni gönlüme saram
Acılarla koyma beni

Görsen seni bir içim su
Gönlüme kurmuşsun pusu
Mevlana’yı hem Yunus’u
Andırıyor o gözlerin
Kandırıyor o gözlerin.

## Fatma Özger Bilgiç

# Son Nefesteyim

Kara kaşlarına kurban olduğum
Sevdasına yanıp huzur bulduğum
Gönül sarayıma gizli aldığım
Nerdesin dön bana, son nefesteyim.

İçime kapandım boşluğa düştüm
Sevdana yol oldum dert ile taştım
Hayatım boyunca zorluklar aştım
Nerdesin dön bana, son nefesteyim.

Yâr belim büküldü, gönül lal oldu
O sevda bahçeme akrepler doldu
Yeşerttiğim gülüm sarardı soldu
Nerdesin dön bana, son nefesteyim.

El sözü çok acı, yılandır sokar
Gözyaşım dinmiyor her gece akar
Şu zalim ayrılık inan ki yıkar
Nerdesin dön bana, son nefesteyim.

Gözümün ışığı kesildi gitti
Bu dert beni hâlsiz, biçare etti
Bekleye bekleye sabrım da bitti
Nerdesin dön bana, son nefesteyim.

Seninle anlaşır, huzur bulurduk
Soğan ekmek ile mutlu olurduk
Hayaller kurardık keyif alırdık
Nerdesin dön bana, son nefesteyim.

**Özger**, söyle dönsün, gönlüm dayanmaz
Kalp gözüm uykuda artık uyanmaz
Sen gideli, gönül ocağım yanmaz
Nerdesin dön bana, son nefesteyim

Esmira Günəş

# Səbəbi Sənsən

Gəl yeni il...
Yeni-yeni arzularla,
Şirin-şirin duyğularla.
Gəl sevindir qəlbimizi,
Xoşbəxtliyə apar bizi.
Xırda-xırda qar tök yenə
Ağ xalçanı sal hər yerə.
Bəyaz-bəyaz gəlinliklər
Geyinsinlər ağaclar da,
Qartopası oynasınlar,
Həyətlərdə uşaqlar da.
Qocalsaq da biz inanaq
Şaxta baba və qar qıza.
Bu qış yenə sevinərək,
Gülə-gülə gedək yaza.
Bizlərə də payın olsun,
Sağlam həyat, gözəl günlər.
Sülh içində keçsin daha
Ömrümüzə gələn illər.
Bax beləcə razı qalaq,
Bir il boyu qoru bizi.
Qəlbimizdə yerin olsun.
Özün qazan sevgimizi.

## Vüsalə Vətənxan Mehri

# Getdin

Atdın məni ey dilbər, səssizcə çıxıb getdin,
Öldürdüyün insanə fəxr ilə baxıb getdin.

Arxanca gözüm yaşlı, görməzcə dönərkən sən,
Rəftarın ilə qəlbi bir anda yaxıb getdin.

Neyçün eləyib peşman qəlbimdəki sevdamı,
İllərcə olan eşqi bir gündə yıxıb getdin.

Mən dağ kimi eşqimlə qarşında sipər oldum,
Dəryasayağı məndən leysantək axıb getdin.

Əfsus ki inanmışdım ömrüm sənə bağlanmış,
Sənsə bu geniş ömrü dərd ilə sıxıb getdin.

Qürrənlə baş aldın sən, divanəliyin tutdu,
Bildim ki bu yol ilə əfsus karıxıb getdin.

Ayrıldı Vüsaləndən həqqin üfürən ruhu,
Dünyanı görüb tənha, sən də darıxıb getdin.

## Zərəngiz Dəmirçi Qayalı

# Mizan-Tərəzi

Qurulmuş mizan-tərəzi,
Dünyanın işi qərəzli,
Çox dərdlərə dözdüm,dözdüm,
Daha dözmərəm bu qəmə!

Güllərin açan vaxtıdır,
Dərbəndin hicran vaxtıdır,
Oruc, Ramazan vaxtıdır!
Mən tapınmışam qibləmə!

Təbrizin yolları çiçək,
Başında buluddan örpək,
Bir ömür azlıq edəcək,
Yayam bu dərdi aləmə!

Şəhriyardan gələn dərdi,
Şaqqa-şaqqa böləm dərdi,
Nə çoxdur dünyanın mərdi?
Son qoyulacaq sitəmə!

Meryem Küçük

# Mavisi Yasaklanmış Çocuk

Kan sızıyor kıvrımlarına
Ağıtlarla yaktığın türkülere
Yüzün gözün yara bere
Yasak ihlali yapsan tüm şiirleri
Kuşları kim göçürdü uzak memleketlere
Acıyı rastgele haykıramıyorum
Saçlarındaki kar kirli bir ırmağa akarken
Essin yeller essin bağrında yanan ateşi serinletsin
Güneş rengi düşer payına belki ufukta

Kır celladın kızıl kan öğüten çarklarını
Mavisi yasaklanmış çocuk
Dilsiz kavalın acı ıslığında besteledim
Katıksız isyanları
Adını okuken yırtılmış takvimlerde
Tarih ve zaman aynası
Hiç susmadı parmak uçlarından sızarken
Kana ve gözyaşına
Kelimesi zincir olmuş bileklerinde
Bu ağılı uykulardan uyan
Sırılsıklam olur bütün gülüşler uyandığında